# TƏRƏFSİZ QƏZETİN ÖNDƏRİ

Aydın Quliyev - bu imza Media mənsubları tərəfindən "həqiqətin güzgüsü" kimi çoxdan təsdiqlənib. Axı onun həyat kredosu obyektivlikdən yoğrulub. Bu səbəbdən də istər "Bakı-Xəbər"in sükanı arxasında, istərsə də Mətbuat Şurasında bu İnsanın adı xüsusi hörmət-izzətlə çəkilir. Aydın bəyin halallığı, təmizliyi müxtəlif dünyagörüşlü müəllifləri sözügedən qəzetlə birləşdirir, rəngarənglik yaradır.

65 yaş - kamillik və müdriklik göstəricisidir. Dostumuz Aydın əfəndi bu dövrə Şərəflə qədəm qoyur. İnsanlarala münasibət qurması, polemikaya açıq olması işlədiyi kollektivin işgüzrlığında "güzgülənir". Onu hamı sevir. Çünki bu sevgi ağır zəhmətə qatlanmaqdan keçir və əsla azalmır, əksinə - reytinq göstəricisində yüksəlməyə doğru irəliləyir.

Həftədə 5 gün çıxmasına baxmayaraq "Bakı-Xəbər" yazı qıtlığından çox uzaqdır, hətta çoxsaylı yazılar "zaqonda" öz növbəsini gözləyir.

Olduqca alicənab, həssas ailə başçısı olan Aydın Quliyev işdənkənar həyatda da hamıya əlçatandır və - dostları demişkən yeyib-içən Oğlandır. Məncə bu "xasiyyətnamə" onun iç dünyasının barometridir. Bütün burnlar gəlişigözəl sözlər deyil. Onunla şəxsi təmaslarım və məhrəm münasibətim ən böyük Şahiddir...

Aydın bəyəfəndiyə və rəhbərlik etdiyi "Bakı-Xəbər"ə uzun ömürlülük, can sağlığı, etibarlı dost çevrəsi, ailə səadəti diləyirəm. Odur ki, 65-dən 100-ə doğru - irəli!

"Bakı-Xəbər"in daimi oxucusu və müəllifi
Givi - Giya PAÇXATAŞVİLİ
Azərbaycan, Rusiya, Gürcüstan Yazıçılar Birliyinin üzvü, şair

# *Aydın Quliyev milli ziyalıdır*

Aydın Quliyev Azərbaycanın görkəmli ictimai-siyasi xadimidir. Aydın bəylə ilk tanışlığımız siyasət aləmində olub. Keçən əsrin 90-cı illərində mən Milli İstiqlal Partiyasının sədr müavini olanda Aydın bəy də Azərbaycan Demokrat Partiyasının sədr müavini idi. Bizim dostluğumuz, əməkdaşlığımız ordan başladı. Aydın bəylə ikimiz də ixtisasca tarixçiyik, bu da bizi birləşdirən cəhətdir. Burda bir məsələni də qeyd etmək istəyirəm ki, Aydın bəy milli ziyalıdır, milli hisslərlə yaşayan insandı, bu da bizi birləşdirən cəhətlərdən biridir. Mən Aydın bəyin rəhbərlik etdiyi "Bakı-Xəbər" qəzeti ilə uzun illərdir əməkdaşlıq edirəm və bu mənim üçün çox qürurverici bir haldır. Çünki bu qəzet mənim üçün doğma qəzetdir, Aydın bəyin rəhbərlik etdiyi kollektivlə mənim fikir, əqidə birliyim var. Yəni müxtəlif məsələlərə münasibətdə demək olar ki eyni mövqe bizi birləşdirir.

Aydın bəyin 65 yaşı tamam olur, yubileyi qeyd ona can sağlığı, gələcək işlərində uğurlar arzulayıram.

Aydın bəy böyük siyasətdən jurnalistikaya gəlib. O, əqidə adamıdır. Əgər o, əqidə adamı olmasaydı bəzi siyasətçilər kimi bəlkə də daha çox "uğurlara" imza atardı. Aydın bəy siyasətdə əxlaq məsələsini daim üstün tutur. Yəni siyasətdə əxlaq kodeksi onun üçün əsasdır. Buna görə də bəzilərindən fərqli olaraq siyasətdən ayrılıb jurnalistkaya gəldi və öz uğurunu jurnalistikada tapdı. Mən çox şadam ki, Aydın bəy indi Azərbaycan ictimaiyyəti - siyasi həyatında özünə uğurlu yer tutmuş "Bakı-Xəbər" qəzetinin baş redaktorudur. Aydın bəy başda olmaqla " Bakı - Xəbər" qəzeti əməkdaşlarına cansağlığı, xoşbəxtlik və gələcək uğurlar arzulayıram.

Məhərrəm ZÜLFÜQARLI,
Tarix elmləri doktoru, professor

Ədalət .- 2025.- 11 iyul(№25).- S.12.